# Söz meydanındakı uğurlarımız döyüşdəki qələbələrimizə informasiya dəstəyi qazandırır



***Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu cənnət Qarabağımızı xarabazara çevirmiş işğalçı Ermənistana qarşı media müstəvisində apardığımız mübarizənin müharibə başlanandan cəbhədə həlledici qələbələrin qazanılmasına yaratdığı mötəbər informasiya dəstəyi barədə söhbətimizdə bildirdi:***



– Xalqımızın işğalçı Ermənistanla bütün cəbhələrdə, eləcə də dünya informasiya meydanında mübarizəsi uğurla davam edir. Ali Baş Komandan İlham Əliyevin beynəlxalq mediaya verdiyi müsahibələr Qarabağ müharibəsinin mahiyyətinə, erməni yalan və saxtakarlıqlarına aydınlıq gətirilməsi baxımından dünya ictimai rəyinə hər şeydən artıq təsir göstərir. Bu isə işğalçı bədnam rəhbərliyini və bu ölkənin dünyanı xərçəng kimi bürümüş terrorçu şəbəkəsini daha da azğınlaşdırıb.

Azərbaycan Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin son günlərdə dəfələrlə verdiyi açıqlamalardan da göründüyü kimi, erməni millətçi-terrorçuları Qarabağ həqiqətləri ilə bağlı obyektiv reportajlar hazırlayan beynəlxalq media nümayəndələrinə ABŞ, Fransa kimi söz azadlığı dəyərlərinin uca tutulduğu ölkələrdə belə təzyiqlər göstərirlər. Bu yolverilməz aksiyalar erməni lobbisinin artıq heç bir sivil normaya məhəl qoymadığından, söz azadlığı aləmi üçün də başağrısına çevrilməsindən xəbər verir.

Erməni millətçiliyinin qayəsi, mayası terrorizmdən yoğrulub. Erməni siyasətinin, onun faşist ideologiyasının arxasında da terror amili dayanıb. Yəni erməni millətçi ideologiyası terrorizm ilə sıx bağlı olub və bu gün də belədir. Ermənistan döyüş meydanlarında uduzduqca, onun terrorizm siyasəti özünü daha aydın göstərməyə başlayır. Həqiqəti deyən, gerçəkliyi dilə gətirən jurnalistlərə qarşı ermənilər tərəfindən təhdidlər irəli sürülür, həqarətlər səsləndirilir.

Fransanın TF1 televiziyasının əməkdaşı Lizeron Budula qarşı ermənilərin təpkiləri buna nümunədir. Bütövlükdə isə belə faktlar kifayət qədər çoxdur. Rusiyada obyektiv fikir səsləndirən ekspertləri, politoloqları, hətta adi vətəndaşları erməni millətçiləri təzyiqə, təhqirə məruz qoyurlar. Bu zorakılıq çağırışları mütəşəkkil səviyyədə səsləndirilir. Erməni yalanlarının üstünü açan söz adamlarına qarşı ölüm hədələri irəli sürülür. Fransa televiziyasının yerləşdiyi ofis qarşısında ermənilərin keçirdiyi aksiyalar, səsləndirdikləri rüsvayçı şüarlar buna sübutdur. Ermənilərin obyektiv fikir səsləndirən insanlara, media nümayəndələrinə, ekspertlərə qarşı həyata keçirdiyi bu addımlar sıradan bir təzyiq deyil. Bu, sözün əsl mənasında, terrordur. Ermənilər obyektiv fikir səsləndirən jurnalistləri, ekspertləri hədə-qorxu yolu ilə susdurmağa çalışırlar.

Ermənilərin bu uydurmalarının Qarabağın tarixi və bölgənin bugünkü reallıqları ilə heç bir əlaqəsi olmadığına aydınlıq gətirən BAMF rəhbəri daha sonra söylədi:

– Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları, eləcə də Prezident İlham Əliyevin qurduğu mükəmməl diplomatiya və beynəlxalq mediada apardığı həqiqət kampaniyası ermənilərin uydurduqları cəfəngləri, nəhayət, sürətlə alt-üst etdi. Bu isə erməniləri daha çox qıcıqlandırır və quduzlaşdırır. Ermənistan rəhbərliyinin son vaxtlar olduqca qeyri-ciddi və bir-birinə zidd bəyanatlar səsləndirməsi də məhz bu məğlubiyyəti həzm etməməklə əlaqədardır.

Baxın, hərb meydanında məğlub olan ermənilər, sadəcə, Azərbaycan Ordusuna qarşı deyil, həm də, guya, Türkiyəyə qarşı vuruşduqlarını iddia edirlər, heç bir əsas olmadan, "Azərbaycan-Türkiyə orduları" ifadələrini işlədirlər. Ermənilər özləri də çox yaxşı bilirlər ki, Azərbaycanda bir nəfər də olsun türk əsgəri və xarici muzdlu döyüşçü yoxdur. Onlar Azərbaycan Ordusunun bütün hərbi əməliyyatları öz gücü hesabına həyata keçirdiyini bilə-bilə, dünya ictyimaiyyətinə yalan məlumatlar verirlər, müharibə ilə bağlı həqiqətləri köklü şəkildə təhrif etməyə çalışırlar.

Tarixən, az sayda erməni qədim Azərbaycan şəhəri Şuşanın künc-bucağında nökərçiliklə məşğul olub, şəhərin həyatında heç bir ciddi rol oynamayıb. Lakin indi erməni ordusunun darmadağın edildiyi, böyük itkilər verərək geri çəkildiyi bir vaxtda Şuşa ilə bağlı "müqəddəs müharibə" elan edirlər. Şuşada ötənlərdə "üç cüt bir tək" erməni yaşadığı halda indi bu müqəddəs türk yurdunu dünyaya "erməni şəhəri" kimi təqdim etməyə çalışırlar.

Qarabağ müharibəsi ilə bağlı Azərbaycanın beynəlxalq media qurumları ilə əlaqələrinə toxunan Umud Rəhimoğlu müharibənin ilk günündən bu məsələdə də lazımi çevikliyə və peşəkarlığa nail olunduğunu qeyd etdi:

– Döyüşlər başlayan gündən Azərbaycan dövləti öz qapılarını beynəlxalq mediaya açdı. Əslində, bizim qapımız xarici informasiya məkanı üçün əvvəllər də açıq olub. Müharibə həqiqətlərini dünyaya olduğu kimi və gecikmədən çatdırmaq üçün dövlətimiz bu məsələyə kifayət qədər diqqət göstərir. Dünyanın ən aparıcı media qurumlarının əməkdaşları istədikləri vaxt ölkəmizə gələ bilirlər. Onlar cəbhədə baş verənləri yerindəcə izləyir, həqiqətin kimin tərəfində olduğunu heç bir təsir və təzyiq olmadan müəyyənləşdirirlər. Onlar bu informasiyaları sərbəst şəkildə analiz edir, öz bildikləri kimi yaymağa qərar verirlər.

Uzun illər ərzində ölkəmizlə heç bir əlaqəsi olmayan, heç vaxt Azərbaycana səfər etməyən jurnalistlər belə indi dünya informasiya məkanı mərkəzinə çevrilmiş bölgəyə davamlı olaraq gəlirlər.

Onlar döyüş meydanında və ətrafdakı reallıqlarla tanış olur, Azərbaycanın 30 ildən bəri arxa palana keçirilmiş haqq işi uğrunda mübarizə apardığına, Ermənistanın isə dinc insanlara qənim kəsilən, onlara kütləvi qırğın silahları ilə atəş açan terrorçu dövlət olduğunu görürlər. Bu reallıqlar dünya meidasında yer aldıqca indiyədək başları tumarlanmış erməni millətçiləri çılğınlıqla əsəbləşir, daha çox gərginlik keçirirlər. Bu, erməni diaspor təşkilatlarında çox böyük çaşğınlıq və aqressiya yaradır. Buna görə də onlar, az-çox, doğru informasiya yayanlara ən müxtəlif üsul və vasitələrlə təzyiq göstərməyə çalışırlar.

Qarabağla bağlı həqiqətlərin ardıcıl olaraq ölkəmizin birinci şəxsinin dilindən səsləndirilməsinin-- Prezident İlham Əliyevin beynəlxalq media orqanlarına ciddi məntiq və arqumentlərlə əsaslandırılmış müsahibələr verməsinin beynəlxalq auditoriyanın düzgün məlumatlandırılmasına, erməni yalanlarının ifşa edilməsinə bir ordu qədər xidmət göstərdiyini vurğulayan media qurumu rəhbəri bildirdi:

– Azərbaycan rəhbəri İlham Əliyev dünya ictimaiyyətini məlumatlandırmaq istiqamətində də müstəsna bir çevikliklə, məqsədyönlü şəkildə zəruri işlər görür. Ali Baş Komandanın dünyanın nüfuzlu media qurumlarına birbirinin ardınca verdiyi müsahibələr dünya ictimaiyyətində Qarabağ müharibəsinin obyektiv və əhatəli mənzərəsini yaradır. Demək olar ki, hər gün ölkə başçısının beynəlxalq media vasitələrindən hansınasa geniş açıqlaması olur. Bunlar beynəlxalq ictimai rəyə önəmli təsir göstərir. Dünya bu müsabibələri izləməklə müharibə bölgəsindəki əsl reallıqla tanış olur. Bu açıqlamalar hazırda dünya informasiya məkanında Azərbaycan-Ermənistan münaqişəsi, Qarabağ müharibəsi və s. haqqında dolğun və obyektiv informasiya mənbəyi rolunu oynayır.

Prezident Administrasiyasında da bu işlər uğurlu şəkildə qurulub. Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti də önəmlidir. Fond Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində bu vaxtadək atdığı ciddi addımları indi daha sistemli davam etdirir. Bizim rəsmilərimiz də bu istiqamətdə mühüm işlər görürlər. Dövlət başçısının köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fəaliyyəti xüsusi seçilir. Xarici diplomatların və əcnəbi jurnalistlərin çevik şəkildə, vaxtında məlumatlandırılmasında, erməni terrorunun beynəlxalq müstəvidə ifşa edilməsində onun operativ açıqlamalarının ciddi rolu var.

Bu işdə jurnalistlər ordusu da gecə-gündüz informasiya cəbhəsində qələmi və sözü ilə döyüşür. Bu gün bizim informasiya meydanındakı həqiqət savaşımız səngərlərdəki haqq mücadiləsi ilə həmahəngdir. Hər iki meydanda çox ciddi savaş gedir. Sevindiricidir ki, hər iki cəbhədə kifayət qədər böyük uğurlarımız var. Əminik ki, bu uğurlar xalqımızın Qarabağ savaşındakı böyük Qələbəsini gerçəkləşdirəcək.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***